# Dövlət Statistika Komitəsində mətbuat konfransı keçirilmişdir.



2015-ci il iyulun 24-də Dövlət Statistika Komitəsində kütləvi informasiya vasitələri ilə 2015-ci ilin birinci yarısında ölkənin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş mətbuat konfransı keçirilmişdir. Mətbuat konfransı Dövlət Statistika Komitəsi sədrinin birinci müavini Həmid Bağırov tərəfindən aparılmışdır. Cənab Həmid Bağırov 2015-ci ilin birinci yarısında ölkənin sosial və iqtisadi sahələrində baş vermiş dəyişikliklər, iqtisadiyyatın inkişafı və sosial sferada irəliləyişlər haqqında statistik məlumatları təqdim etmiş və media nümayəndələrinin ümumi daxili məhsulun hesablanma metodologiyası, inflyasiya, yeni iş yerləri, kənd təsərrüfatının siyahıyaalınması və digər suallarına dəqiq və əsaslandırılmış cavablar vermişdir.



